«ƏHMƏD AĞAOĞLU VƏ TÜRK DÜNYASI»
Beynəlxalq elmi konfransın
MATERİALLARI
Bakı, 16 noyabr 2023-cü il

PROCEEDINGS
of International Scientific Conference on
«AHMET AGAOGLU AND THE TURKIC WORLD»
Baku, 16 November 2023

https://doi.org/10.59849/iscaatw.2023.33

Pərvanə İsayeva*

ƏHMƏD AĞAOĞLUNUN "TANRI DAĞINDA" HEKAYƏSİ İLƏ VATSLAV SEROŞEVSKİNİN "YAKUT HEKAYƏLƏRİ" VƏ "YAKUTLAR" KİTABLARI ARASINDA PARALELLƏR

Xülasə

XIX əsrin 30-cu illərindən fəaliyyətə başlamış antropoloji, etnoqrafik və ədəbiyyat cəmiyyətlərinin əsas istiqaməti kimi xalqların milli, məhəlli xüsusiyyətləri ilə yanaşı, mifoloji və dini görüşlərinin araşdırılması olduqca əhəmiyyətli idi. Müasir tədqiqatlar üçün əvəzsiz qaynaq olan bu materiallara müraciət etməklə etnoqrafik detallar üzərində aparılan tədqiqatlar etimoloji qənaətlərə yox, elmi əsaslara söykənir. 1831-ci ildə Fin Ədəbiyyat Cəmiyyəti, 1845-ci ildə Rusiya Coğrafiya Cəmiyyəti, 1859-cu ildə Paris Antropoloji Cəmiyyəti, 1884-cü ildə Tokioda Yapon etnoqrafik Cəmiyyəti və 1923-cü ildə təsis edilən Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti genetik kodların daşıyıcısı olan mədəni sərvətlərin toplanması, öyrənilməsi və sistemləşdirilməsi ilə yeni mərhələyə keçidi hazırlayırdı. Bəzən bu fəaliyyətin əsas məqsədi imperiya siyasətinin bir parçasına çevrilir, gələcək siyasi gedişlər üçün zəmin təşkil etsə də, ağız ədəbiyyatının toplanması, arxaik təfəkkürün izlərini daşıyan mətnlərin tirajlanması Yazının – ənənəvi olanın gələcək nəsillərə ötürülməsi və yeni interpretasiyaları üçün zəmin hazırlayırdı.

Açar sözlər: V.Seroşevski, Əhməd Ağaoğlu, "Yakutlar" əsəri, "Tanrı dağında" hekayəsi, etnoqrafik detallar, türk mifoloji təfəkkürü

* Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Ədəbiyyat nəzəriyyəsi şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru, dosent, bekirqizi69@mail.ru

Giriş. Müasir dünyanın bütün sosial-siyasi problemləri, yeni müharibə və münaqişə ocaqlarının yaranması, Avrasiya İqtisadi Birliyi ilə yanaşı, Türk Dövlətləri Təşkilatının fəaliyyətinin genişləndirilməsi türkdilli xalqların gələcəyinin təminatçısıdır. Strateji avantajları etibarilə bu birliyə daxil olan ölkələr Türk dünyasının bütün resurslarını bir araya gətirir və nəticədə güclü Türk birliyinin varlığı dünyanın yeni modelləşməsində yer alır. Təbii ki, bu strategiya yeni deyil, XX əsrin əvvəllərində Türk milli kimliyi və müstəqilliyi uğrunda Sədri Məqsudi Arsal, İsmayıl Qaspiralı, Ziya Göyalp, Yusuf Akçura, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Əhməd Cəfəroğlu kimi ziyalıların başlatdığı mübarizənin təmələlri üzərində inkişaf etmişdir.

Əsas hissə. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki (11 noyabr 2022-ci il, Səmərqənd) çıxışında dediyi kimi, "Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın siyasətində türk dövlətlərinin bütün sahələr üzrə birgə fəaliyyətinin təmin olunması əsas prioritetlərdəndir.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir. Ümumiyyətlə, 2023-cü il Türk dünyasında böyük ildönümləri ilə yadda qalacaq. Bu il həm Ulu Öndər Heydər Əliyevin anadan olmasının yüzilliyi, həm Türkiyə Cümhuriyyətinin yüzilliyi, həm də torpaqlarımızın bütövlüyünə nail olduğumuz, Xankəndində, Xocalıda ucaldılan Azərbaycan bayrağı ilə tariximizin şərəfli səhifələrinin yazıldığı il oldu.

"Əhməd Ağaoğlu və Türk dünyası" konfransının keçirilməsi də türk dünyasının birliyi və gələcəyi baxımından çox dəyərlidir. Əhməd Ağaoğlunun ictimai-siyasi görüşləri, bədii-fəlsəfi əsərləri, publisistikası ədəbiyyatşünaslığımızın maraq dairəsində olan mənbələrdəndir. Bizim diqqətimizi çəkən əsas məqamlardan biri "Tanrı dağında" əsəri ilə V.Seroşevskinin "Yakutlar" ki-

tabı arasında paralellərin araşdırılmasıdır. Təbii ki, Əhməd Ağaoğlu kimi bir fikir adamının bu etnoqrafik materiallara diqqət etməsi və onun təsiri ilə "Tanrı dağında" adlı hekayənin yazılması müəllifin türkçülük ideyaları ilə bütünləşir. Bədii mətnin içərisində şaxələnən türk mifoloji təfəkkürü ilə bağlı olan motiv və obrazlar sistemi əsəri mifopoetik aspektdən də araşdırmağa imkan verir. Təbii ki, ilk öncə V.Seroşevskinin Sibirin yerli türk tayfalarından olan Yakutlar və ya Saxaların "Yakutlar" kitabında əks etdirilən məşğuliyyətləri, yemək və geyim mədəniyyəti, yurd yerinin təsviri, sənətkarlıq məsələləri, qəbilə quruluşu, şifahi xalq yaradıcılığı, inam və etiqadlarını diqqətə almalıyıq. Nəzərə alaq ki, həmin etnoqrafik detallar XIX əsrin sonlarında, hələ yakutların yeni sivilizasiya ilə tanışmasından öncə toplanmışdır. Ona görə hələ olonxoların rituallar üzrə söylənməsi, mətnin sakrallığının mühafizəsi, yaşamın inamlar və inanclara uyğun sürdürülməsi yakut mədəniyyətinin xarakteristik elementlərini üzə çıxarmağa imkan verir.

Yakutiya və onun tarixi rus və xarici alimlərin bir çox nəsilləri tərəfindən öyrənilmiş və diqqətdə saxlanılmış olan mövzulardandır. Bölgəylə bağlı elmi tədqiqatlar hələ XVIII əsrdə başlamışdır. D.G.Messerşmidtin rəhbərlik etdiyi 1732-1743-cü illərdə baş tutan İkinci Kamçatka ekspedisiyasının nəticələri bu sahədə təkcə elmi deyil, həm də ticari, hərbi maraqların əhəmiyyəti baxımından mühüm rol oynamışdır. Bir çox tədqiqatçıların qənaətinə görə, ekspedisiya Rus dövləti üçün əsasən dövlət sərhədlərini genişləndirmək kimi siyasi missiyanı həyata keçirirdi (A.A.Pokrovski, R.V.Osminina, D.Gibson, D.Dahlmann). Bütün siyasi maraqları ilə yanaşı, belə bir ekspedisiyanın təşkili, XVIII əsrədək gəlib çıxmış etnoqrafik və folklor materiallarının yerli söyləyicilər tərəfindən qeydə alınması həm o dövr üçün, həm də müasir tədqiqatlar baxımından çox önəmlidir. XIX əsrin 60-70-ci illərində missioner və etnoqraf V.İ.Verbitski "Христианское чтение", "Миссионер", "Странник" jurnallarında və "Томские губернские ведомости" məcmuəsində Altay xalqlarının və bu ərazidə məskunlaşmağa başlayan rusların etnik mədəniyyəti ilə bağlı etnoqrafik detallara yer verirdi. O illərdə gənc Q.N.Potanin V.İ.Verbitskini tənqid edərək, onun materiallarının söyləyicilərin

dilindən və təhkiyəsindən deyil, müəllifin dilindən verilməsini qəbuledilməz sayırdı, çünki bu halda əfsanələr dilin gözəlliyi və ifadəliliyini itirə bilirdi. Q.N.Potaninə görə, şifahi mədəniyyətin əsas xüsusiyyəti dilin stixiyasında boy göstərir [1, s.29].

Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi Yusif Vəzir Çəmənzəminli "Nağıllarımızı necə toplamalı" məqaləsində də Q.N.Potaninlə eyni mövqedən çıxış edir: "…nağıl ədəbiyyatının müəyyən üsulu var. Onları gözəl edən və süsləndirən müəyyən dil, tərkib və cümlələrdir. Xalq ədəbiyyatı ilə maraqlananlar bu nöqtəni unudarlarsa, çəkdikləri zəhmət hədər olar. Xüsusən cümlələr və dil nağılda da əhəmiyyətli yer tutur. Bir çox nağılların "Biri var imiş, biri yox imiş, Allah var imiş, bəndəsi yox imiş" deyə başlandığını hər kəs bilir, qurtardıqda "o, yedi yerə keçdi, sən də ye dövrə keç" deyirlər. Gözəl gördükdə "yemə-içmə, xətti-xalına, gül camalına tamaşa et", yol getdikdə "az getdi, üz getdi, dərə-təpə düz getdi" kimi cümlələr nağılın zinəti hesab olunur. Nağılları toplarkən bunları qeyd etməlidir. Bunlarsız nağıl bütün gözəllikdən məhrum olar.

Xalq ədəbiyyatını toplayarkən kitab təsirinə düşülərsə, böyük xəta zühur edə bilər. Səhv etməmək üçün xalq ədəbiyyatını savadsız mühitdən əxz etməlidir. Bu sahədə kitab təsirinə düşən və şəhərbəşəhər gəzən dərvişlərin nağılları faydasızdır. Çünki bunlar əsil mühitin gözəllik və təmizliyindən məhrumdurlar" [2, s.280-281].

Sibir və Altay xalqlarının yaşam tərzi, etnoqrafiyası, dünyagörüşü, bir sözlə, mental strukturunun araşdırılmasında səyyahların və siyasi sürgünə göndərilənlərin xidməti danılmazdır. Bu baxımdan, R.K.Maak, A.F.Middendorf və E.Yaroslavskinin məqalələri, V.Seroşevskinin əsərləri əsas mənbələrdəndir. Bu mətnlərdə xüsusən yakutların təbiəti canlı varlıq kimi qəbul etməsi, yasaqlara riayət edərək meşədə yüksək səslə qışqırmamaq və ya su hövzələrini çirkləndirməyi günah hesab etmək kimi xüsusiyyətlər yerli xalqın dünyagörüşü ilə bağlı idi. Yakutların qədim inanışları olonxolarda əksini tapır. Maraqlıdır ki, yerlilər bu qədim mətnləri folklor materiallarını toplayanlara çox da istəklə söyləməzdilər, çünki bununla mətnlərin sakrallığına xələl gələcəyindən ehtiyat edirdilər. Bu baxımdan, mətndə bəzi məqamlar

yad adamlara açıqlanmayaraq, mətnin sirri qorunurdu. Xüsusən olonxoların söylənməsi günlərlə çəkə bilərdi, söyləyicinin ritualların hamısını icra edib-etməməsi məclisdə yad bildiklərinin olub-olmamasına bağlı idi. Bu yanaşma yalnız yakutlara xas deyil, qədim mədəniyyətin kodlarını hifz edən bütün toplumlarda özünü göstərir.

Yakutlarda olonxonun janrını V.Seroşevski nağıl, nəğmə, rəvayət kimi izah edir: "Nağılların, nəğmələrin, rəvayətlərin dili alliterasiyalar, təkrarlarla bəzəndiyi üçün tərcümədə çətinlik yaradır". "Yakutların "Olonxo" qəhrəmanlıq dastanı dünya xalqlarının epik poeziyasının ən zəngin və inkişaf etmiş nümunələrindən biridir. Qədim dövrlərdə yaranmış bu epos saxa xalqının həyatında mühüm yer tuturdu. O, qədim yakutların kainat haqqında təsəvvürlərini, onların dini, əxlaqi, etik və estetik baxışlarını özündə cəmləşdirirdi. Yakut xalqında Olonxo mədəniyyəti çox inkişaf etmişdir" [3].

Polyak əsilli V.L.Seroşevskinin (1858-1945) "Yakut hekayələri" [4] (1895) və "Yakutlar" [5] (1896) əsərləri etnoqrafik materialların zənginliyi və Şərqi Sibirin türk xalqlarının həyat şəraitinin, etnik mədəniyyətinin, adət-ənənəsinin araşdırılması baxımından qiymətli məxəzlərdəndir. Çox gənc yaşlarından sürgün həyatı yaşayan V.Seroşevski 1880-1892-ci illərdə məhkumluğu ilə yanaşı, yerli xalqın həyat şəraiti və etnoqrafiyasına da maraq göstərmişdir. Qeyd etmək istərdik ki, polyakların üç nəsli 1794, 1830, 1863-cü illərdə Sibir sürgünlərini yaşamışdır. XVII-XX əsrlərdə bura sürgün olunanların və repressiya qurbanlarının xatirəsinə 2001-ci ildə Yakutiyada memorial qoyulmuşdu. Beş sal daşdan ibarət memorialda Yakutiya ilə bağlı ciddi araşdırmaların müəllifləri olan V.Seroşevski, E.Pekarski və b.-nın da adları qeyd edilmişdi.

Rus folklorşünaslığının tanınmış nümayəndələrindən olan İ.A.Xudyakov (1842-1876) da 1867-78-ci illərdə Uzaq Sibirdə sürgündə olmuş və "Verxoyansk məcmuəsi"ni [6] hazırlamışdı ki, bura yakut nağılları, nəğmələri, atalar sözləri və tapmacaları daxil edilmişdi. Təbii ki, həm İ.A.Xudyakov, həm də V.L.Seroşevskinin yakut xalqının etnoqrafiyası və folklor materiallarının toplaması Rus Coğrafiya Cəmiyyətinin təşəbbüsü deyil, daha

çox siyasi görüşlərinə görə mərkəzdən uzaqlaşdırılan insanların yerli xalqların həyat tərzinə və etnoqrafiyasına olan maraqlarından irəli gəlirdi. Bu da Rusiya ərazisində yaşayan türk xalqlarının etnik kimliyinin təcəssümü olan etnoqrafiyası və şifahi ədəbiyyat nümunələrinin toplanması və nəşri üçün misilsiz xidmət idi. Bu xidməti dəyərləndirən Türk Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk E.Pekarskinin "Yakut dili lüğəti"nin türk dilinə tərcüməsini vacib hesab edir və Türk Dil Qurumu da Ə.İnan, Əhməd Cəfəroğlu, R.Rəhməti Arat başda olmaqla 12 nəfərlik işçi qrupu formalaşdırır [7]. E.Pekarski bu fundamental əsərində yakut dilinin fonetik sisteminin əsas aparıcı xüsusiyyətlərini qoruyub saxlamışdır. Onun əsaslandığı mənbələr sırasında V.L.Seroşevskinin "Yakutlar" əsəri də yer alır.

V.L.Seroşevskinin 1905-ci ildə Peterburqda nəşr olunan "Yakut hekayələri"ndə müəllifin "Payız", "Oğurlanmış oğlan", "Xaylak" və s. hekayələri ilə yanaşı, "Tanrılara qurban" hekayəsi də var. Hekayədə arxaik təfəkkürün izlərini daşıyan şaman ayinləri, insanın dünya nizamı içərisindəki yeri, təbiət və insanın vəhdəti, pozulmuş nizamın bərpası üçün qurban mərasimi, şamanın geyimi və s. məsələlər bədii mətn texnikasından daha çox folklor materialı kimi qələmə alınır.

Tədqiqatçı İ.Yemelyanov V.L.Seroşevskinin yaradıcılığını öyrənən A.İ.Yatsimirskinin mülahizələrini belə dəyərləndirir: "Yatsimirski V.Seroşevskinin nəsrinin keyfiyyətini həqiqətin fəlsəfi dərki kimi dəyərləndirir. Tədqiqatçı bəlkə də yazıçının insan və təbiət, bəşər və kainat münasibətləri ilə bağlı özünəməxsus fəlsəfi anlayışını ilk dəfə qeyd etmişdir. A.İ.Yatsimirski bu münasibəti V.Seroşevskinin panteizmi kimi müəyyənləşdirmişdir... Uzun müddət aralarında yaşadığı əcnəbilərin panteizmi Polşa yazıçısının əqidəsinə çevrildi. Təbiətin gücü onun ölməzliyindədir; eyni gücə başqalarının xeyrinə özünü qurban verən insanlar da sahibdirlər". Yatsimirskiyə görə, V.L.Seroşevski həyat və ölüm məsələlərini dərk edərək, reallığın konfliktlərini və ziddiyyətlərini göstərərək, "insan axtarır" və Avropa mədəniyyətinə xas olan antroposentrizmi rədd edir" [8].

Professor A.İnan "Tarixdə və bu gün şamanizm" [9] əsərində yada daşı ilə bağlı hissədə, "Türk mifologiyası" [10] əsəri-

nin müəllifi B.Ögəl isə türk mədəniyyətində ocağın müqəddəs yeri, onun su ilə söndürülməsi və ya kəskin bir əşyayla qarışdırılmasının günah olması haqqında fikirlərini əsaslandırmaq üçün V.L.Seroşevskinin "Yakutlar" əsərinə müraciət etmişdir. B.Ögəl türk mədəniyyətinin arxaik qatlarının öyrənilməsi baxımından V.Seroşevski, Dırenkova, Anoxin kimi tədqiqatçıların quzey türklərin etnoqrafik irsinin toplanmasındakı xidmətlərini yüksək qiymətləndirmişdir.

Böyük Azərbaycan mütəfəkkiri Əhməd bəy Ağaoğlu V.L.Seroşevskinin "Yakutlar" əsərini türkcəyə tərcümə etmişsə də, əsər çap olunmamışdır. Bu haqda C.Çebitürkün "Demokratikləşmə sürəcində Əhməd Ağaoğlu" [11] adlı tədqiqatında məlumat verilir. Əsər 2007-ci ildə Arif Acaloğlu tərəfindən tərcümə edilmiş və Türkiyədə işıq üzü görmüşdür. Ə.Ağaoğlu "Tanrı dağında" hekayəsinin müqəddiməsində yazırdı: "Bu dəfə Cümhuriyyət oxucularına təqdim etdiyim bu yazının çərçivəsi və çərçivənin içindəki əski Türk yaşayışına aid lövhələr, məşhur rus tənqidçisi V.Serejovskinin (V.Seroşevskinin – P.İ.) Yakutlar haqqında yazmış olduğu "Yakutlar" adındakı əsərindən alınmışdır" [12].

Əhməd bəy Ağaoğlunun "Tanrı dağında" hekayəsi şaman kosmoqoniyası, ritual lar və ayinlərin icrası, daşıdığı informasiya kodları ilə yanaşı, XIX əsrin sonu, XX əsrin əvvəllərində etnoqrafik materialların toplanması və nəşri sahəsində ziyalıların aktiv fəaliyyətinin təzahürü idi. Maraqlı faktlardan biri odur ki, "Tanrı dağında" hekayəsinin süjet xətti ilə V.L.Seroşevskinin həm "Yakut hekayələrin"də yer alan "Tanrıya qurban" mətni, həm də "Yakutlar" adlı etnoqrafik tədqiqatları arasında paralellər aparmaq mümkündür.

Əhməd Ağaoğlu "Tanrı dağında" hekayəsinin "Tanrı hüzurunda" adlı ilk hissəsini Qamlar qamı Qaraqurumlu Gökçə şamanla başlayır. Rəşidəddin "Teb Tenqri ləqəbini daşıyan Gökçənin göyə çıxdığından, Tanrı ilə görüşdüyündən və daim Çingiz xanın yanına gəlib onun dünya hökmdarı olacağından" bəhs edərdi [13]. Qaraqurum (Xara-Xorun) 1235-1260-cı illərdə Çingiz xan dövlətinin paytaxtı olur. 1889-cu ilin yayında Rus Coğrafiya Cəmiyyətinin Şərqi Sibir şöbəsinin ekspedisiya qrupu Qa-

raqurum şəhərinin xarabalıqlarını müəyyən edirlər. "Qaraqurum" sözünün semantikası qara qaya, qara daş mənası verməsi tədqiqatçılar tərəfindən təsdiqlənir. Mahmud Kaşğari "Divani lüğətit-türk" də "korum" sözünün mənasını qaya, sərvət kimi izah edir [14]. Diqqət çəkən faktlardan biri budur ki, Qaraqurumun qala divarları yanında 1585-ci ildə "Erdene-dzu" məbədi inşa edilmişdi.

Ə.Ağaoğlunun hekayənin lap əvvəlində həm qamlar qamı Gökçədən, həm də Qaraqurumdan bəhs etməsi türk tarixinin qədim çağlarına işarədir və əsas fikrin bəyanıdır. Qamlar qamı Gökçədən bəhs edən təhkiyəçinin "o yüyürür, mən gedirdim" deməsi ikisi arasındakı fərqi də izah etmiş olur. Gökçənin əlindəki qavalın "Qaplan dağı tosununun dərisindən" hazırlanması, qavalın çevrəsindəki zınqırovların min bir dillə səslənməsi, belindəki tütəyi şamanın məlum atributlarındandır. Canavarların hücumuna qarşı Tanrı gölündəki qamışdan hazırlanan tütəyin dillənməsi və şamana görə əsas nəfəsin nəfəs olması şərt idi: "– Bil, anla ki məndə, səndə, bu dağlarda, daşlarda, quşlarda, ağaclarda yaşayan bir əsil vardır. Biz o əsillərin ayrı-ayrı şəkilləriyik! Əslimiz bir olduğu üçün ayrı-ayrı görünsək də, həqiqətdə birik. Qaplanları gördünmü? Nəfəsə dayana bilmədilər! Çünki nəfəs əslə dəydi, özünü tapdı. Birliyi oyandırdı" [15].

Gökçə şamanın bu sözləri müəllifin əsas ideyasının təzahürüdür. "Əslinə qayıdış fəlsəfəsi ilə biz qədim türk eposlarında rastlaşırıq. Əslindən uzaqlaşmağın faciəsi də həmin eposlarda öz əksini tapmışdır... Ə.Ağaoğlu burada əski zamanlarda mövcud olan və uğurların əsası sayılan Türk birliyinə işarə edir və həmin birliyə indi daha çox ehtiyac duyulduğunu önə çəkir" [15].

Tanrı dağına gedən yolda Gökçə şamanın ilk dayanacağı Elley ulusu olur. Hekayənin bu hissəsi V.Seroşevskinin "Yakutlar" əsərinin "Yakutların cənub mənşəyi haqqında" bölümü ilə üst-üstə düşür. "Tanrı dağında" Elleyin evinin və təsərrüfatının təsviri, eləcə də Tanrıya etdiyi dua mətni [12, s.55-56] V.Seroşevskinin etnoqrafik materialını [17, s.183, 187] eynilə təkrarlayır. Elleyin süd kimi bəyaz tikilisi, Urasanın təsviri və bəzədilməsi yakutların qədim ənənəsini yada salır. Yakutiyanı öyrənən səyyahlar və etnoqrafik materialları toplayanlar sonralar urasala-

rın bəzədilməsi ənənəsinin yavaş-yavaş aradan çıxmasını bu torpaqlara köçürülən rusların yeni tipli evlər tikməsi ilə əlaqələndirirlər.

Ə.Ağaoğlunun 2007-ci ildə "Şərq-Qərb" nəşriyyatı tərəfindən nəşr olunan "Seçilmiş əsərləri"ndə urasa: "ehtimal ki, Altay və Sibir türklərinin yaşadıqları ərazilərdəki qala adlarından biridir" [16] kimi izah olunur. Seroşevski "Tikililər" başlığı altında yakutların qədim zamanlardan bəri yaşadıqları yurdlardan söz açarkən urasanın mütləq şəkildə otlaqlara yaxın yerdə qurulmasından bəhs edir. Urasa qala deyil, yaşayış üçün uyğun yurddur. Onun konusvari quruluşunu içəridən üç halqanın – aşağı, orta və yuxarı olması qeyd edilir. Bu həm də yakutların təfəkküründə yer etmiş aşağı, orta və yuxarı dünya anlayışı və ya mifik təfəkkürü ilə də səsləşir. V.Seroşevski varlı yakutların öz urasalarını müxtəlif naxışlarla bəzəməsindən də söz açır.

Ə.Ağaoğlunun Elley ulusu və onun yaradıcısı Elley haqda rəvayəti də V.Seroşevskinin söyləyicidən qələmə aldığı etnoqrafik materiala əsaslanır: "…увидели: стоит, точно серебряная, белая берестяная ураса, украшенная узорами, зубчиками, кружками... кругом в порядке стоят пристройки: хлев, загон, изгороди. Горят дымокуры. Всюду чисто подметено, гладко. Во дворе, вдоль изгороди, стоят зеленые Елки внизу подчищены (содрана кора), что называ^ ется ч е ч и р. В самом углу стоит большое, красивое берестяное ведро х о л о г о с, под кумыс. Тогда у Эллея еще не было кожи, чтобы сшить настоящий кумысный мешок, с и м и р. Перед ведром, повернувшись лицом к югу, стоит на коленях (на одном колене) Эллей, держит в руках большую ложку с теплым маслом и поет: "Создатель наш, господин творец! Мать наша, госпожа хранительница! Возьми, небес создатель, отче боже! Четырех небес распорядительница мать! Девятигранная земля! Восьмиграннаа родительница степь! Местами обсыхающий, с редкими лесами, с развесистой растительностью, Серединный мир: рожай для меня! Восьмигранная степь, тобою созданный, благодаря тебе живу! На вершинах мира сего, опершись ступнями, стою и взываю к тебе! Три тверди заставь, четырем небесам

накажи, семи небесам определи, раскрывши восемь своих скрижалей (агыс аркыматыяг)! Девяти небесам прикажи, девяти небесам свою волю объяви! Сделай все это на беломолочном камне сидящий, белый создатель, господин! Белая мать госпожа, создавшая эту четвертую землю, на этом серединном мире, дитя твое умоляет! Ты, мягких обычаев заходящего солнца! Ты благоприятных мыслей восходящего солнца! Будучи человеком праведным, обращаюсь к тебе; будучи удалым урангхайцем, говорю тебе! Мать-хранительница, госпожа, душа мира! Воспевающим голосом взываю к тебе: чистое серебро взволнуй, замути, появись! Трехжердной моей изгороди, ворота раздвинувши, прошу тебя! Исполненный лучших намерений, мудрых советов, стою, ожидаю! Создательница наша, хранительница, госпожа, мать моя: воспитанный мной скот огради, рожденных мною детей в пуху укачай! Неба создательница, трех небес мать, с белооблачного седалища своего небрежно взгляни на меня! Рождающая создательница, госпожа, выслушай! Творец господин, благослови!., уруй!.. уруй!.. уруй!..). Окончивши песню, Эллей подбросил вверх ложку масла, затем отдал ложку жене и приказал отнести ее домой и положить не кое-как, а повернувши вверх углублением. Жена исполнила приказание. Тогда Эллей взял большущий деревянный а я х (кубок)с кумысом и, ставши опять на одно колено, а на другом держа сосуд, снова пел и просил, поднимая бокал с кумысом к небу. Неизвестно откуда появились тогда три белых лебедя и, троекратно покружившись над Эллеем, спустились и стали пить кумыс из бокала. Обрадовался Эллей, уселся с женою, под ч е ч и р ом пил кумыс, разговаривал и веселился” [17, с.178].

Bu mətn V.Seroşevskinin “Yakutlar” əsərindən, növbəti mətn isə Ə.Ağaoğlunun “Tanrı dağında” hekayəsindəndir. V.Seroşevski bu rəvayəti Elleyin Onoxodan ayrıldıqdan sonra qurduğu yeni ulusdan söz açarkən istifadə edir. Ə.Ağaoğlu isə Gökçə şamanın Tanrı dağına gedərkən Elley ulusuna qonaq olması və “bəmbəyaz saqqallı, uzun saçları kürəyinə tökülən” Elleyin qarşısında diz çöküb əlini öpüb, ondan xeyir-dua alması və Tanrıya

duası əsnasında eyni rəvayəti bədii mətnə gətirir: "...evə yaxınlaşdıq. Bu, süd kimi bəyaz bir tikili, urasa idi. Ətrafı gözəl, düzgün bir çitlə (çəpərlə) çevrələnmişdi. Bir qədər aralıda inəklər üçün ağıl, qısraqlar üçün bir axır vardı. Çit boyunca bir sıra bəyaz şam ağacı başlarını göylərə qədər uzatmışdı...

Çitin bir tərəfində duran qımızla dolu ağac bir kovaya doğru yeridi, diz çökdü. Elley əlində südlə dolu bir qaşıq tutaraq başladı:

"Bizi yaradan yiyəmiz Tanrı! Bizi saxlayan sahibimiz ana! Ey Tanrı! Ey səkkiz göyü yaradan! Ey dörd göyün sahibi ana! Ey doqquz bucaqlı yer! Ey səkkiz bucaqlı səhra! Ey az meşəli, qalın otlu orta dünya! Doğurdunuz bizi! Sayənizdə yaşayırıq. Ey süd kimi ağ daş üzərində oturan yaradıcı Ay-Toeen. Ey orta dünyada bu dördüncü yeri yaradan böyük sahibimiz ana! Övladın sənə yalvarır! Sən ki batan günəşin yumşaq və dərdli görünüşüsən! Sən ki doğan günəşin uğur gətirən nurlarısan! Mən ki doğru insanam, sənə xitab edirəm! Özünü göstər! Bizi yaradan, tutan sahibimiz ana! Bəslədiyimiz heyvanları saxla! Doğduğumuz uşaqları yumşaq yataqlarda salla! Göyü yaradan üç göyün anası! Bəyaz buludlar arasından mənə bir bax! Doğuran, yaradan sahib, dinlə! Mərhəmət et! Uruy! Uruy! Uruy!

Elley duanı bitirər bitirməz əlindəki qımız dolu kasanı havaya atdı və əlinə bir qədəh – ayaq alaraq doldurdu və yenidən duaya başladı və qədəhi də havaya atdı! Birdən birə nə görsək yaxşıdı? Üç bəyaz leylək uça-uça bizə tərəf gəldilər, Elleyin başı üzərində dolandılar və qabın kənarına düzülərək qımız içməyə başladılar!! Bu, duanın qəbul olunması əlaməti idi. Elley çox məmnun oldu, quşları oxşadı" [12].

Hər iki mətn arasında oxşarlıqla yanaşı, bəzi fərqli məqamlar da yer alır. Ə.Ağaoğlu "Tanrı dağında" V.Seroşevskinin "Yakutlar"ın XV fəslində "İnanışlar" başlığı altında verdiyi yakut söyləmələrindən istifadə edərək Ay-Toeendən bəhs edir. V.Seroşevski şaman ayinlərindən bəhs edərkən Ay-Toeeni belə təqdim edir: "Yakut söyləmələrində Ay-Toeen nə zalım, nə mərhəmətli, nə də varlıq kimi düşünülür. Göyün yeddinci qatında oturan Ay-Toeen kainatın yaradıcısıdır. Günəş Ay-Toeenin işarətidir" [17, s.629].

Bu ritualda diqqətimizi çəkən elementlərdən biri bəyaz qu quşu ilə bağlıdır. Şimal xalqlarından olan buryatların mifoloji görüşlərində qu quşu kultu ilə bağlı rəvayətlər yer almaqdadır. Mərasim nəğmələri və mif mətnlərində, rəvayətlərdə qu quşları ilkin yaradıcı kompleksinin daşıyıcısı kimi çıxış edir. "Buryatların qədim dini və mifoloji baxışlarına görə, ağ rəngli qu quşları (Xun Şubuun) qanadlarında yer üzündəki nəsillərinə xoşbəxtlik, zənginlik və firavanlıq gətirir. Buna görə də buryatların ritual sistemində səmavi quşlar kultu ilə əlaqəli bütöv bir ritual və qadağalar kompleksi var idi. Ağ rəngli qu quşunun timsalında türk və monqol xalqlarının qədim dini inancları kontekstində günəş kultları və məhsuldarlıq kultu ilə açıq-aşkar sakral əlaqə var" [18].

Həm V.Seroşevskinin, həm də Ə.Ağaoğlunun mətnlərində Elleyin havaya qımız atması və ağ rəngli qu quşlarının onun başı üzərində görünməsi inancla bağlıdır. Tədqiqatçılara görə, bu mərasim buryatlar arasında yaşamaqdadır. "Yazda köçəri quşlar düşərgələrin üzərindən uçanda, xori-buryat qadınları süd qabı ilə küçəyə qaçardılar. Dibinə bir az süd, xama və ya bir qədər mayalanmış süd məhsulu tökülüb, süd qabı ağ quzu dərisi ilə örtülürdü". Quşlara doğru süd sıçradılar və bir vedrə südlə onların qabağında fırlanma hərəkətləri ilə tilsim edərdilər: "Xuruy! Xuruy! Xuruy!" ("Gəl! Gəl! Gəl!") Buryat qadınları payızda uçan quşların ardınca süd səpir, sanki onlara xeyir-dua verir, ailələrinə sağlamlıq, xoşbəxtlik və firavanlıq diləyirdilər" [19, 1987, s.48]. Ə.Ağaoğlu mətndə qu quşunu leylək kimi tərcümə etmişdir.

Altay xalqlarının mifoloji təfəkküründə qu quşları yaradıcı aktın əsas iştirakçılarındandır. Onların öldürülməsi yasaq idi. Rəvayətə görə, "əvvəlcə ancaq su vardı, torpaq yox idi, Tanrı ağ qu quşunu göndərir; o, suya baş vuraraq torpağı tapır" [20, s.123]. Şamanın ruhları çağırması motivi "Şaman Berqeselex" əfsanəsində də yer alır: "Berqeselex içi yarıya qədər qımızla doldurulmuş böyük kasanı götürdü, evin qapısını yarıya qədər açmağı xahiş etdi. Sonra o kasanı iki əli ilə başı üzərinə qaldırdı və ruhları öyməyə başladı... Əgər dediklərim doğrusa, ruhlara xoş gəlirsə, onda şərqdən üç ağ quş uçub gələcək, buraya yığılanların gözünə görünəcək. Ey göylərin hökmü ilə hərəkət edən quşlar, bura yığı-

lanlara görünün, qoy onlar mənə inansınlar. Uruy! Uruy! Uruy!" [21, s.53-54]

V.Seroşevski və Ə.Ağaoğlu mətnləri arasında paralelləri Elley ulusunun gənclərinin deyişmələri zamanı da izləmək olur. "Yakutlar həqiqətən də yaxşı mahnılara qulaq asmağı sevir və onların müğənniləri, görünür, dinləyicilərinin fikrinə dəyər verirlər. Bəzən öz aralarında yarışlar təşkil edirlər. Təsadüfən və ya qəsdən kiminsə yurdunda toplaşan rəqiblər növbə ilə mahnı oxuyur, dinləyicilərin tərifini axtarır, onları həyəcanlandırmağa çalışırlar" [17, s.570].

"Yakutlar" əsərinin XIV fəslində Şifahi xalq yaradıcılığı başlığı altında verilən hissədə gənclər arasındakı yarışma ilə Ə.Ağaoğlunun Elley qəbiləsində baş tutan qarşılaşma arasında da oxşarlıq izlənilir:

"Что за ужасное преступление сделаем?
Ведь не человека убьем,
не амбар сломаем... поцелуемся".

Или вот насмешливая песенка девушек неудачливому жениху:

Пестрый олень – в приданое,
Рыжий пойдет на выкуп,
Белого родители возьмут за заботы,
Полосатому имя а р г а н,
Гнедой – для тебя будет добычею,
А за серого получишь... в шею!
С седалищем из тундряного моря,
С зависимостью от северного моря,
С окраинами из западного моря,
С краями из южного моря,
С ободком из восточного моря,
С порогом из глиняной горы,
С ровнями из лежащей горы,
С тихо светящимся небом,
Под серебряным солнцем,
Высоко-кружась, восходящим, белосветлым...
С ущербающимся месяцем,

С переходящими ночевками,
С глубокими, имеющими быстрые течения водами,
С улыбающейся, прозрачной, тихой водой,
С падающим, прямым, отборным лесом.

С жирной, мягкой травой по лодыжку четырехлетнего коня, Противоположного берега не видно, Предела не заметно, Неотгадываемой длины, Прямая земля с цветущей растительностью, Восьмигранная мать-вселенная...” [17, с.574-575].

“Tanrı dağında” iki tərəf arasındakı deyişmə belə verilir:

“Əvvəl erkəklər aldılar:
– Nə etdik ki? Günahımız nə?
– Al yanaqdan bir öpücük istədik.
– Verilmədi! Zorumuzla aldıq.
– Bu bizim haqqımız!
Qızlar cavab verdilər:
– İstədiyiniz al yanaq deyil,
– Əlvan rəngli ceyranlar, ildırım yerişli qısraqlar.
– Aldığınız öpücük deyil, ənsənizə toxmaqdır.
– Arxanıza da təkmələr, ey dəliqanlılar”.

Tapmacalar (Tapnoca)

Bozqır dənizində oturan
Şimal dənizinə bağlanan
Yanları batı dənizinə çatan
Ətəkləri cənub dənizinə çarpan
İşığı Kil dağı
Üzü orta yayla
Üstü işıldayan göy
Sinəsi oddan günəş
Bəyaz saçan ayı var
Dəyişən gecələri
Sürətli axan suları var
Sakit dərin sular,
Düz, gözəl ormanları var.

O biri tərəfi görünməz
Uzunluğu ölçülməz
Çiçəkli otlar daşıyan
Düz yerləri var!
Səkkiz guşəli ana kainat [12].

Elley ulusunun yaradıcısı Elley mifopoetik epik təsəvvürdə mədəni qəhrəman, "Tanrı dağında" duası qəbul olunan, öz ulusunu yaratmış müqəddəslərdəndir. V.Seroşevski "Elley ustadır, Elley dəmirçidir, Elley ağacdan müxtəlif qablar hazırlayır, balta, bıçaq düzəldir" [5] deyir. Etnoqrafik materiallarda urasanın ilk dəfə Elley tərəfindən tikilməsi haqda da söyləmələr var. V.Seroşevski Elleyin Onoxo ilə görüşündən və onun qızıyla evləndikdən sonra yeni yurd yeri salması və heyvandarlıqla məşğul olması haqda məlumat verir. "Elley yakutların ilkin əcdadıdır. Yakut mifologiyasında Elley ana vətəni cənubda öz müdrikliyi ilə seçilirdi. Tuymaadı dərəsinə gələn Elley Omoqoy bəyin yanında çalışır, sonra onun çox da sevilməyən böyük qızı ilə evlənir. Elley yakutlarda ən sevilən bayramın – ısıaxın əsasını qoymuşdur. Elley çox vaxt Er-Soqotoh (tənha, yalnız) epiteti ilə anılırdı" [17]. Bu ad onun ilkin əcdad statusunu da izah etmiş olur.

"Tanrı dağında" Orhun baş qamının təsviri zamanı yenə V.Seroşevskinin məlum mətnindəki şaman ayinləri və şaman geyimləri ilə bağlı detallardan istifadə edilir. "Qamın önündə gedən Quturukçular əllərində qımız dolu çanaqlar (hologos), mübarək dəflər (tungur) daşıyırdılar. Qamın ayin keçirəcəyi bəlliydi. Üzərindəki ağ at dərisindən hazırlanmış qaftanın arxasınca günəş (Kyunte) şəklində və ətrafı Qondey-Qihen deyilən borularla altmış bir dəmir parça sallanırdı. Qollarına və digər boş yerlərə insan, balıq, leylək şəkillərində bir çox zınqırovlar asılı idi" [12].

V.Seroşevski "İnanclar" bölməsində şaman ayininin icrası ilə bağlı "Балык-тимир (рыба) – пластинка около четверти аршина длиною, пальца два шириною, вырезанная наподобие рыбы с головой, плавниками, хвостом и чешуей; она висит сзади на длинном, доходящем до половины ляжек ремне; в Колымском округе она волочится по земле; назначение ее – служить приманкой второстепенным духам,

мелюзге, которые за нею бегают, стараясь поймать ее (Колымский округ, 1883 г.). Чоран – маленькие, медные, пустые внутри шарики, висящие на концах длинных, доходящих до пяток ремней, спускающихся в виде бахромы с краев кафтана; эта бахрома называется б ы т ы р ы с (кисти). Кафтан спереди гладок и завязывается на груди ременными завязками, а под шеей застегивается на пряжку в виде “жеребячьего языка” (к у л у н - т ы л к у р д у к). На нем спереди нашиты фигуры животных, птиц, рыб, зверей, всякие бляшки, эмблемы небесных светил, а также железки, изображающие части человеческого скелета и внутренностей. На севере в случае отсутствия описанного выше костюма надевают женский с а н - г ы н я х, меховое, из выделанной телячьей кожи пальто, шерстью наружу, на котором иногда навешивают сзади некоторые более важные железки, как-то: оба “солнца”, рыбу, б ю р г ю н е, иногда там, где у женщины груди, вешают две круглые жестянки, долженствующие изображать их. Шаманский кафтан, перед. /у Л Г \ / имеют свойство не ржаветь и имеют душу — и ч ч и т э Ш< лап I,’девает волшебный кафтан всегда на голое тело\ принимает его из рук кутуруксута (хвоста, пажа), то есть человека, который должен во время шаманства поддерживать его криками: с ё б! к и р д и к! ч о о! о о! о! (ладно! правда!., чоо! оо! о!) и оказывать ему другие услуги; между прочим, он сушит у огня бубен, чтобы тот был звучнее. Этот бубен, т у н г ю р, всегда яйцевидной формы, 2^/2 фута длиною, 2 шириною и от 4 до 5 дюймов вышины; его обод сделан из старого, высохшего на пне лиственного дерева, из лучшей части такого дерева, называемой киль; снаружи обод бубна украшен семью, девятью или одиннадцатью угловатыми выпуклостями, покрытыми тою же кожей, которой обтянут весь бубен); внутри бубна идут накрест ремни, привязанные посередине к железному кругу с поперечинами, или к кресту, называемыми тунгюр б ы э р и к (завязка бубна); за это железо шаман, продевши пальцы в соответствующие отверстия, держит бубен. Внутри бубна, вдоль обода, особенно там, где привязаны ремни –

“завязки”, висит множество бубенчиков, колокольцев, железных и костяных, погремушек, послушных малейшему движению шамана-музыканта. В левую руку шаман берет небольшую, слегка изогнутую деревянную колотушку, обшитую кожей с кобыльих или оленьих ног; затем садится на белую кобылью кожу, разостланную посередине юрты; на камине тушат огонь; присутствующие усаживаются вдоль стен, и обряд шаманства начинается” [17] deyir ki, burada da şaman geyimindəki balıq yakutların dünyagörüşündə aşağı dünya ilə əlaqələndirilir. İnsan fiquru orta dünyanı, günəş və bəzən də qu quşu isə yuxarı dünyanı simvolizə edir.

V.Seroşevskinin “Yakutlar”ında şamanın ayin sırasında söylədiyi duanın mətni ilə “Tanrı dağında”kı mətn arasında da aydın bir bənzərlik izlənməkdədir:

“Мощный бык земли... Конь степной!..”

“Я, мощный бык... реву!”

“Я заржал... конь степной!”

“Я всего выше поставленный человек!”

“Я всего больше одаренный человек!”

“Я человек, созданный господином мощным из мощных!”

“Степной конь, явись!.. Научи меня!..”

“Волшебный бык земли, явись!.. Заговори!..”

“Мощный господин, приказывай!..”

“Каждый, с кем вместе иду, пусть слушает ухом! Пусть не следует сзади за мной, кому не скажу: иди!”

“Впереди, ближе дозволенного вам – не становись! Пусть каждый смотрит зорко! Пусть слушает чутко!.. Берегитесь вы!”

“Смотрите хорошенько! Будьте все такими... все в совокупности... все, сколько вас есть”.

“Ты с левой стороны, госпожа с посохом, если, можег статься, ошибочно или не той дорогой направлюсь, прошу тебя, направь! Распорядись!..”

“Ошибки и дорогу, госпожа мать моя, укажи!.. Вольным следом полети!.. Мою широкую путь-дорогу расчищай!

“На юге, в девяти лесных буграх живущие духи со яте солнца, вы, которые будете завидовать... прошу вас всех... пусть стоят... пусть три ваши тени высоко стоят!

“На востоке, на своей горе, государь мой дед, мощной силы, толстой шеи, – будь со мной!..”

“И ты, седобородый, почтеннейший чародей (огонь), прошу тебя: на все мои думы без исключения, на все мои желания согласись... выслушай!., исполни!.. Все, все исполни!” [17]

Ə.Ağaoğlu bu mətni eyni məntiqlə təkrar edir:

Kürənin qüdrətli öküzü, çöl atı! Bağır! Kişnə!
Hər şeyin üstünə çıxmış insan!
Hər nəsnədən vergilər almış insan!
Hər kəsdən qüdrətli, bacarıqlı insan!
Çöl atı, gəl öyrət!
Kürənin sehirli gözü, danış!
Qüdrətli (sahib) buyruq ver.
Sən də ey sol tərəfdə əlində dəyənək tutan sahib!
Sizlərə söyləyirik!
Yanlışlıq etsək, yolumuzu itirsək!
Yalvarırıq. Əmr verin, yol göstərin!
Yiyəmiz ana! Bizim geniş yollarımızı təmizlə!

Siz! Ey cənubda doqquz ormanlı təpələrdə yaşayan günəş ruhları!

Şərqdə dağ üzərindəki yeyələrimiz?

Ulu babamız! Qalın boyunlu, qüdrətli, güclü babamız!

Və sən! Ey möhtəşəm ağsaqqallı sehrli od! Sənə yalvarırıq.

Təmiz könüllə istədiklərimizə, təmiz ürəyimizlə düşündüklərimizə!

İcazə ver, bizi dinlə, yap! Yap! Yap! [12].

Nəticə. Əhməd bəy Ağaoğlunun “Tanrı dağında” hekayəsi ilə V.Seroşevskinin “Yakutlar” kitabı arasında paralelləri mümkün qədər araşdırmağa çalışdıq. Həm V.Seroşevski, həm də Ə.Ağaoğlunun eyni düşüncə və təfəkkür sahibləri kimi yaşadıqları dövrün ictimai-siyasi təqibləri, milli kimlik uğrunda mübarizəsi XX əsrin əvvəllərində və daha sonra ziyalıların qarşılaşdığı

reallığın təbii davamı idi. Belə olmasaydı, gəncliyinin ən gözəl çağında V.Seroşevski Sibir, Altay sürgünlərində min bir müsibətlə qarşılaşmazdı. Ə.Ağaoğlu da öz doğma torpağında kiçik yaşlarından erməni-daşnak şovinizmi ilə qarşılaşmış, çarizmin müstəmləkə siyasətinin mahiyyətini dərk etmişdi. Bu baxımdan, etnoqrafik materiallarla zəngin "Yakutlar"ın işıq üzü görməsi ilə Türk kimliyi üzərində düşünən fikir adamları mifoloji təfəkkürün ən qədim qatlarına işıq tutan bu mətnləri diqqətdə saxladılar. Ə.Ağaoğlu həm türk mifoloji düşüncəsinin qədim çağlarına diqqət etmiş, həm də Türk xalqlarını Yeni dünya modeli içərisində azad, müstəqil və birlikdə görmək istəyini "Tanrı dağında" hekayəsi ilə dilləndirmişdir.

İstifadə edilmiş ədəbiyyat:

1. А.М.Сагалаев, Е.М.Крюков, Г.Н.Потанин. Опыт осмысления личности. Новосибирск: Наука. Сибирское отделение, 1991, 231 с.
2. Yunis Vəzir Çəmənzəminli. Əsərləri. III c. Bakı: "AVRASİYA PRESS", 440 s.
3. Бурцев А.А. Судзуки Д. Якутские олонхо и эпические памятники народов Евразии. https ://core.ac.uk.
4. Вацлав Серошевский (Сирко). Якутские рассказы. С–Петербургъ. Издание Л.Ф.Пантелеева, 1895.
5. В.Л.Серошевский. Якуты. Опыть этнографического исследования. С–Петербургъ, 1896.
6. И.А.Худяков. Верхоянский сборник: якутские сказки, песни, загадки и пословицы, а также русские сказки и песни. Т. 1, Вып. 3, Иркутск, 1890. 216 с.
7. M.Ersöz. Sahalar (Yakutlar)'la İlgili Türkiye'de Yapılan Çalışmalar.21 Yüzyılda Eğitim ve Toplum, 2015. Vilt.4.Sayı 12.
8. Емельянов И.С. А.И. Яцимирский – исследователь творчества В.Серошевского и А.Шиманского. Филологические науки. Вопросы теории и практики. Philology. Theory & Practice 2022. Том 15. Выпуск 7. С.2131-2136 | 2022. Volume 15. Issue 7. P. 2131-2136.
9. A.İnan. Tarihte ve bu gün Şamanizm. Türk Tarih Kurumu Basımevi, Ankara,1986.
10. Bahaeddin Ögel.Türk mitolojisi (Kaynaklar ve Açıklamaları ile Destanlar) II cilt. Türk Tarih Kurumu Basımevi. Ankara, 1995, 610 s.
11. Coşkun Çebitürk. Demokratikleşme sürecinde Ahmet Ağaoğlu (Yüksek Lisans Tezi). Eskişehir, 2001.

12. Əhməd Ağaoğlu. Ağaoğlu Küliyyatı – 1. Ben neyim. İstanbul, 1939, 69 s.
13. Osman Turan, Çingiz Adı Hakkında, Belleten, XIX, 1941. Cihân-güşâ, I, 28; Reşdettin, Cami ut-tevarih, I, s.307.
14. Mahmud Kaşğari. Divanü Lüğat-it-türk. cild 1. Ankara: Türk Tarih Kurumu Basımevi, 1992, 530 s.
15. Şahbaz Şamıoğlu (Musayev). Əhməd Ağaoğlu: həyatı, mühiti, nəşri və epistolyar irsi. Bakı: Elm və təhsil 2023, 172 s.
16. Əhməd Ağaoğlu. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 392 s.
17. Серошевский В.Л. Якуты. Опыт этнографического исследования. – 2-е изд., М., 1993, 736 с.
18. Дашиева Л.Д. Культ лебедя в традиционной культуре бурят // Международный научно-исследовательский журнал №12 (114). часть 5. декабрь 2021. cyberleninka.ru/article/n/kult-lebedya-v-traditsionnoy-kulture-buryat.
19. Галданова Г.Р. Доламаистские верования бурят / Новосибирск: Наука, 1987, 120 с.
20. Дыренкова Н. Птица в космогонических представлениях турецких племен Сибири / Культура и письменность Востока. Баку, 1929, – кн. 4, с.119-126.
21. Şaman əfsanələri və söyləmələri. Bakı: Yazıçı, 1993, 144 s.

Parvana Isayeva

PARALLELS BETWEEN THE STORY "IN GOD'S MOUNTAIN" BY AHMET AGAOGLU AND THE BOOKS "YAKUT STORIES" AND "YAKUTS" BY WACLAW SIEROSZEWSKI

Summary

As the main direction of the anthropological, ethnographic, and literary societies that emerged in the 30s of the 19th century, to thoroughly examine the mythical and religious beliefs of other peoples, as well as their distinct national and local characteristics was of great importance. Researchers referred to these resources, which are a wonderful resource for contemporary research, to study ethnographic aspects using scientific evidence rather than etymological interpretations. The Finnish Literary Society in 1831, the Russian Geographical Society in 1845, the Paris Anthropological Society in 1859, the Japanese Ethnographic Society in Tokyo in 1884, and the "Azer-

baijani Research and Development Society" founded in 1923 was preparing the transition to a new stage by collecting, studying and systematizing the cultural resources that deliver the genetic codes of the peoples. Sometimes the main purpose of this activity became a part of the imperial policy and formed the basis for future political movements, but the collection of oral literature and the circulation of texts reflecting the traces of archaic thinking prepared the ground for the transmission of traditional Writing to future generations and new interpretations.

Keywords: W.Sieroszewski, Ahmet Agaoglu, the work "Yakuts", "In God's Mountain" story, etnographic details, Turkish mythological thinking

Парвана Исаева

ПАРАЛЛЕЛИ МЕЖДУ ПОВЕСТЬЮ АХМЕД БЕКА АГАОГЛУ "НА БОЖЬЕЙ ГОРЕ" И КНИГАМИ В.СЕРОШЕВСКОГО "ЯКУТЫ" И "ЯКУТСКИЕ РАССКАЗЫ"

Резюме

Как основное направление антропологических, этнографических и литературных обществ, начавших действовать в 30-х годах XIX века, большое значение имело изучение мифологических и религиозных воззрений народов, а также национальных и местных особенностей. Исследования этнографических деталей с использованием этих материалов, которые являются бесценным ресурсом для современных исследований, основываются не на этимологических выводах, а на научных основаниях.

Основанные в 1831 году Финское литературное общество, в 1845 году Русское географическое общество, в 1859 году Парижское антропологическое общество, в 1884 году Японское этнографическое общество в Токио и в 1923 году "Азербайджанское общество исследований и развития" готовили переход к новому этапу со сбором, изучением и систематизацией культурных ресурсов, являющихся носителями генетических кодов народов. Временами основная цель этой деятельности становилась частью имперской политики, хотя и составляла основу будущих политических движений, сбора устной литературы, распространения текстов, несущих следы архаического мышления, но готовила почву для передачи традиционного письма будущим поколениям и новым интерпретациям.

Ключевые слова: В.Серошевский, Ахмед Агаоглу, произведение "Якуты", повесть "На Божьей горе", этнографические детали, тюркское мифологическое мышление